PARADIGMA, No.3, 2025, səh.32-39
https://doi.org/10.30546/30015.2025.3.019

# AZƏRBAYCANDA SOVET REJİMİNİN FORMALAŞMASININ TARİXİ-SİYASİ ZƏMİNLƏRİ

**E.B. Talışinski, N.A. Rəhmanova**
Azərbaycan Universiteti, Ceyhun Hacıbəyli 71, Bakı, Azərbaycan
e-mail: Narmin.Huseynzada@student.au.edu.az

**Xülasə.** Azərbaycanda sovet rejiminin formalaşmasının tarixi-siyasi zəminləri mürəkkəb və çoxşaxəli proseslərlə bağlı olmuşdur. Bu proses 1917-ci ildə Rusiyada baş vermiş Fevral və Oktyabr inqilablarından sonra yaranan siyasi böhran və boşluq ilə bağlı olmuşdur. 1918-ci ildə yaranan AXC qısaömürlü fəaliyyəti olsa da, regionun neft ehtiyatları və siyasi əhəmiyyəti bolşeviklərin işğal planlarını sürətləndirmişdir. Daxildə olan sosial narazılıqlar və ziddiyyətlər də buna zəmin yaradırdı. 1920-ci ildə aprel ayının 27-də Qızıl Ordu Bakıya daxil oldu və Azərbaycanda sovet rejimi quruldu. Məqalədə həmçinin XX əsrin əvvəllərində Azərbaycanın siyasi və ictimai vəziyyəti, AXC-nin süqutu, Sovet rejimin Azərbaycanda formalaşması haqqında bəhs edilir.

**Açar sözlər:** Azərbaycan, SSRİ, bolşevik, Qırmızı Ordu, AXC.

## Giriş

1919-cu ilin sonu-1920-ci ilin əvvəllərində Azərbaycanda iqtisadi, siyasi, ictimai vəziyyətə nəzər saldıqda vəziyyət olduqca gərgin və mürəkkəb bir halda idi. Ölkədə hökümət böhranı özünü göstərirdi. Xüsusəndə 1920-ci ilin yazından başlayaraq idarəçilikdə olan müsəlman partiya və qruplaşmalar yəni, “Müsavat”, “Əhrar”, “İttihad”, bitərəflər, sosialistlər, kommunistlər arasında qarşıdurma güclənmişdi. Buda ölkədə sabitliyi pozmuş və dərinləşdirmişdir. Dövlət funksiyasını ələ alan “İttihad” partiyası hökümətdəki fəaliyyətini “Müsavat” partiyasına qarşı yönəltməklə müəyyən etdi. Rəsmi şəkildə məqsəd kimi dövlət qurumlarında baş verən qanunsuzluqlarla mübarizə göstərilsə də, bu fəaliyyət daha çox “Müsavat” əleyhinə geniş təbliğat kampaniyası şəklində həyata keçirilirdi. İttihadçılar xüsusilə Ticarət və Sənaye Nazirliyini korrupsiyanın mərkəzi kimi təqdim edir və bu quruma qarşı kəskin hücumlar edirdilər. Bu hücumların təsiri nəticəsində 1919-cu ilin fevralında nazir müavini Y.A.Əliyev istefaya getməyə məcbur qaldı. Sonrakı dövrdə digər sahələrdə də araşdırmalar və yoxlamalar aparıldı. *“Hökumət böhranı davam edən dövrdə respublikanın siyasi həyatında bir sıra mühüm hadisələr baş verdi. Türk Demokratik Federalistlər "Müsavat" Partiyasının 1919-cu il dekabrın 2-də öz işinə başlayan II qurultayında onun bütün MK və parlament fraksiyası üzvləri də daxil olmaqla 140 nümayəndə, həmçinin digər siyasi partiyalardan qonaqlar və tanınmış ictimai xadimlər iştirak edirdilər”* [1, 313].

İttihadçılar açıq şəkildə bildirirdilər ki, hökümət daxilindəki mənimsəmə hallarında ən çox günahkar "Müsavat" partiyasıdır. Hətta onlar "Müsavat"ı dövlətin maliyyə vəsaitlərindən qanunsuz şəkildə istifadə edərək öz siyasi təbliğatını aparmaqda ittiham edirdilər. *""İttihad" partiyası bir sıra məsələlərə münasibətdə bir qədər bolşevikpərəst mövqedən çıxış edirdi. Belə ki, "İttihad" qəzeti o vaxt rəğbətlə yazırdı: "Bolşevizm müsəlmanlardan kənarda güclü qüvvə olduğuna və bütün bəşəriyyəti, o cümlədən müsəlmanları əsarət və zülmün bütün formalarından, Avropa kapitalizmi və imperializmindən azad etmək uğrunda mübarizə apardığına görə partiya tərəfindən müdafiə edilir."* [1, 414].

"İttihad" partiyasının başladığı araşdırma və ifşa kampaniyasını Daxili İşlər Nazirliyində davam etdirən Məhəmmədhəsən Hacınski bir sıra ciddi tədbirlər görməyə başladı. *" "İttihad"ın apardığı təbliğat Qurana əsaslanırdı. Cahil müsəlmanları ayağa qaldırmaq üçün adi təxribat vasitələrindən məsələn belə təbliğat vasitələrindən istifadə edirdilər."* [2,10] Onun təşəbbüsü ilə aparılan yoxlamalar nəticəsində dövlət aparatında çalışan çoxlu sayda məmur vəzifəsindən uzaqlaşdırıldı. Bu cəsarətli addımlar və eyni zamanda Hacinskinin fəhlə nümayəndələri və kommunist çevrələri ilə əlaqə saxlaması parlamentdəki "Müsavat" və bitərəflər fraksiyasında ciddi narazılıqlar doğurdu. Ona qarşı bolşevik düşüncələrinə meyl etmək və bu xəttə sürüklənmək kimi ittihamlar irəli sürüldü. Araşdırmalar isə bir çox dövlət idarəsində ciddi qayda pozuntuları və korrupsiya hallarını üzə çıxardı. *"II qurultay həmçinin Denikin hücumunun təhlükəsi barəsində qətnamə qəbul etdi və bu təhlükəni dəf etmək üçün Azərbaycan xalqını öz hökuməti ətrafında birləşməyə çağırdı"* [1, 316]. Hücumların mərkəzində Xarici işlər naziri Fətəli xan Xoyskinin qohumu Aslan Xoyski dayanırdı. Qazax bölgəsinin general-qubernatoru olan Aslan Xoyski ittihadçıların təzyiqi ilə, Müsavat və bitərəflərin razılığı olmadan, Hacınskinin qərarı ilə vəzifədən uzaqlaşdırıldı. Bu hadisə isə onun siyasi rəqibləri üçün Məhəmmədhəsən Hacıniskini nazir vəzifəsindən kənarlaşdırmaq üçün daha bir əsas yaratmış oldu.

**Tədqiqat**

1920-ci ilin fevral ayının 11-12-də Bakıda keçirilmiş Azərbaycan kommunistlərinin birinci qurultayında Azərbaycan Kommunist Partiyasının əsası qoyuldu. Bu hadisədə sonra partiya üzvləri silahlı üsyana hazırlaşmağa başladılar. Onların ümidləri əsasən Qızıl odunun Şimali Qafqazda əldə etdiyi uğurlar, Xəzər dənizində gəmiçiliyin yenidən fəaliyyətə başlanması və Həştərxan-Xəzər Donanmasının mümkün dəstəyinə bağlı idi. Donanma rəhbərliyi isə, sovet ordusu tərəfindən Petrovsk limanı ələ keçirildiyi təqdirdə, Bakıda genişmiqyaslıəm əliyyatların icrasını planlaşdırdı. Həmin dövrdə Azərbaycanın daxili siyasi durumu qeyri-sabit idi. Bu

qeyri-müəyyənlik hökumət strukturlarına və parlamentin fəaliyyətinə də təsirsiz ötüşmürdü. 1919-cu ilin sonunda, Əmək və Əkinçilik naziri təyin edilən Əlimərdan bəy Pepinov fəhlə məsələlərinə dair həmkarlar ittifaqları ilə görüş keçirdi. O, dövlətin fəhlə təşkilatlarının fəaliyyətinə müdaxilə etməyəcəyini bildirdi və fəhlə klublarına qarşı polis təzyiqlərinin dayandırılıcağını, toplaşma azadlığının qorunacağını, general-qubernatorluğun ləğv ediləcəyini və maaş artimi məsələsinin nəzərdən keçiriləcəyini qeyd etdi. Fəhlələr isə öz növbəsində bu vədlərin yerinə yetirilməsindən sonra nazirə dəstək verməyə hazır olduqlarını bəyan etdilər. Parlamentdə bir çox siyasi partiyanın fəaliyyət göstərməsi və onların arasındakı daimi qarşıdurmalar Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğu dövründə hökümətin işini çətinləşdirirdi. Partiyalar və şəxslər arasında baş verən davamlı çəkişmələr nəticəsində yaranan uzunmüddətli hökümət böhranları, həmçinin güclü iradəyə sahib, vahid və təşkilatlanmış siyasi qüvvələrin olmaması hökümətin idarəçilik strukturunu möhkəmləndirməsinə və dövlətin əsas məsələlərindən biri olan müdafiəyə lazımı diqqət ayırmasına mane olurdu. Azərbaycanda daxili ixtilafların və mübarizələrin davam edib dahada genişləndiyi bu dövrdə artıq Sovet Rusiyası tərəfindəndə təzyiq özünü göstərirdi. 1920-ci ilin yanvar ayının 23-də Xarici İşlər naziri F.X.Xoyskinin Rusiya ilə hərbi ittifaq bağlamaqdan imtina etməsinə cavab olaraq, Q.V.Çiçerin tərəfindən ikinci nota göndərildi və Azərbaycanı Rusiyadakı silahlı münaqişəyə cəlb etmək cəhdi bir daha təkrarlanmamış oldu. Bu nota Rusiya Xalq Xarici İşlər Komissarlığı Azərbaycan hökümətinin sərbəst siyasət yeritməsinə açıq narazılığını ifadə edirdi. Çiçerin, göndərdiyi əvvəlki notaya Azərbaycan tərəfindən heç bir cavab verilmədiyini bildirir, bununla bağlı narazılığını ifadə edir və bu dəfəki təşəbbüsün nəticəsiz qalmayacağını ümid etdiyini qeyd edirdi. *“Bolşevik qoşunlarının Cənubi Qafqaza yaxınlaşması xəbəri Avropada narahatlıq doğursa da, İngiltərə hökuməti o dövrdə Sovet Rusiyası ilə siyasi və iqtisadi münasibətlərin yaxşılaşdırılması xəttini götürmüşdü. 1920-ci ilin aprelində Antanta liderləri Cənubi Qafqaza yardımın göndərilməsi məsələsini müzakirə etsələr də real addımlar atılmadı”* [4,12].

Sovet Rusiyasının Cənubi Qafqazda həyata keçirdiyi siyasətinin əsas istiqamətlərinin müəyyənləşdirilməsində Xalq Komissarları Sovetində millətlər üzrə komissar İosif Stalin və Azərbaycanla yanaşı, Gürcüstan və Ermənistandakı milli hökümətlərin devrilməsində fəal rol oynamış, Azərbaycan əleyhinə açıq mövqeyi ilə tanınan Qriqori Orconikidze əsas fiqurlar kimi özlərini göstərirdilər. 1920-ci ilin aprel ayının 8-də Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi komitəsinin qərarı ilə Cənubi Qafqaz bölgəsində siyasi və hərbi prosesləri əlaqələndirmək məqsədilə Qafqaz Bürosu yaradıldı və bu quruma Orconikidzenin rəhbər təyin olunması təsadüfi deyildi. Sözü gedən, Büronun üzvləri sırasında isə A.Nazaretyan, Sergey

Kirov, Yelena Stasova və digər şəxslərdə yer alırdı. Onların fəaliyyəti isə xüsusilə 1920-ci ildə Cənubi Qafqazın işğalına yönəlmişdir. Qırmızı Ordunun Azərbaycana hərbi müdaxiləsi isə öncədən planlaşdırılmışdı və bu proses ciddi şəkildə hazırlıq tədbirləri ilə müşayiət olunurdu. Hələ ordu bölmələri Bakıya çatmamışdan əvvəl üsyanın uğurlu keçməsi üçün lazım olan silah-sursat və digər vəsaitlər şəhərə gizli şəkildə daşınmışdı. Qafqaz Bürosuna eyni zamanda bölgədəki Qırmızı Ordu hissələrinin əməliyyatlarına rəhbərlik və nəzarət etmək vəzifəsi verilmişdir. 1920-ci il martın 28-də RSFSR-in silahlı qüvvələrinin ali baş komandanı Sergey Kamanev Vladimir İliç Leninə təqdim etdiyi hesabatda bildirir ki, Qroznı şəhəri artıq ələ keçirilib və partiya rəhbərliyinin göstərişlərinə uyğun olaraq, hərbi əməliyyatların növbəti mərhələsi Bakı istiqamətində davam etdiriləcək. Daha sonra əməliyyat planına müəyyən dəyişikliklər edilsə də, 1920-ci il aprelin 23-də XI Qırmızı Orduya göndərilən teleqramda açıq şəkildə tapşırılır ki, təkcə Bakı quberniyasının yox, bütün Azərbaycan ərazisinin işğalı həyata keçirilməlidir. Bu faktlar sübut edir ki, sovet ordusunun irəliləməsi yalnız müvəqqəti hərbi dəstək yox, tammiqyaslı işğal məqsədi güdürdü. Bu planı reallaşdırmaq üçün isə, bolşevik Rusiyasının guya Türkiyəyə yardım etmək üçün Azərbaycan ərazisindən keçməsinin zəruriliyi kimi əsassız bir bəhanə irəli sürülmüş və bu bəhanədən geniş şəkildə  istifadə olunmuşdur. *“Qırmızı ordu qüvvələri artıq Azərbaycana yaxınlaşmışdı. Artıq neftlə zəngin torpaqların işğalı real görünürdü. Əməliyyat Qafqaz cəbhəsinin hərbi rəhbərliyinin 21 aprel 1920-ci il tarixli 490 saylı direktivinə əsasən, XI ordunun komandanı M.Levandovskinin başçılığı altında həyata keçirildi. İranın şimal hissəsində yerləşən ingilis hərbi hissələrinin və Gürcüstandan gələ biləcək köməyi əngəlləmək üçün əməliyyat qısa müddətdə cəmi beş günə çatdırılmalı idi”* [4, 12]. XI Qızıl ordunun hissələri aprelin 26-dan 27-nə keçən gecə Azərbaycana hərbi əməliyyatlara başladı. Buda beynəlxalq hüquq normalarının qanundan kənar şəkildə pozulması idi. Aprelin 27-də səhər saatlarında zirehli qatarla irəliləyən sovet qoşunları Azərbaycan sərhədini keçdi. Azərbaycan ordusu müqavimət göstərsə də, bu cəhd uğursuz oldu və qarşısı alındı. Ölkədə isə vəziyyət getdikcə daha da ağırlaşırdı. Xarici qoşunların paytaxta doğru hərəkəti AXC-nin taleyini faktiki olaraq müəyyənləşdirirdi. Aprelin 27-si axşam saatlarında Azərbaycan Parlamenti çox gərgin bir atmosferdə iclas keçirdi. Hərbi təzyiqin kölgəsində keçirilən bu qısa toplantıda Rusiya Kommunist (bolşevik) Partiyası Qafqaz Diyar Komitəsi adından göndərilmiş ultimatium müzakirəyə çıxarıldı. Ultimatiuma, əsasən, hakimiyyət Nəriman Nərimanovun başçılıq etdiyi fəhlə-kəndli hökümətinə verilməli idi. Həmin taleyüklü iclasdan öncə M.Ə.Rəsulzadə, M.H.Hacıniski, Q.Qarabəyova, A.Qardaşov, A.Səfikürdski və S.Ağamalıoğludan ibarət bir komissiya yaradılmışdı. Bu komissiyanın əsas vəzifəsi

təqdimolunmuş ultimatiuma cavab olaraq Azərbaycan Parlamentinin irəli sürəcəyi şərtləri müəyyənləşdirmək idi. M.Ə.Rəsulzadə vəziyyətin ciddiliyini nəzərə alaraq qərarların xalqın iradəsi ilə uyğunlaşmasını vaci hesab edərək iclasın ictimaiyyətin iştirakı ilə, yəni açıq şəkildə keçirilməsini təklif etdi. Ultimatiumun mətnini isə bolşeviklərə və sosialistlərə simpatiya göstərən M.H.Hacıniski səsləndirirdi. O, sovet qoşunlarının Azərbaycana hücum məqsədi ilə deyil, yalnız Anadoluya keçid məqsədi ilə gəlməsinə inandığını söylədi. İclas isə gərgin bir şəraitdə keçdi. Parlamentin "Hümmət", "İttihad", "Əhrar" və sosialist blokunu təmsil edən nümayəndələri çıxış edərək Hacıniskinin mövqeyi ilə razılaşdıqlarını və hakimiyyətin yeni hökümətə verilməsini dəstəklədiklərini bəyan etdilər. Aydın görünürdü ki, bu siyasi qüvvələrin maraqları Azərbaycanın dövlət müstəqilliyini qorumaq deyil, mövcud vəziyyətdə hakmiyyəti sülh yolu ilə təhvil vermək idi. Diskussiyaların nəticəsi olaraq saat 23:00-da Parlament öz fəaliyyətini dayandırdı və hakimiyyətin təhvil verilməsi barədə razılaşdırılmış şərtlər qəbul olundu. Bu şərtlər aşağıdakılar idi:

1.Sovet idarəçiliyi altında olsa belə, Azərbaycanın suverenliyi saxlanılır.

2.Kommunist partiyası tərəfindən qurulacaq yeni hökümət müvəqqəti xarakter daşıyacaq.

3.Azərbaycanın gələcək dövlət quruluşu, hər hansı xarici müdaxilə olmadan, fəhlə kəndli və əsgər deputatlarının sovetləri tərəfindən müəyyən ediləcək.

4.Dövlət idarəçiliyində çalışan sıravi məmurlar işlərini davam etdirəcək, lakin rəhbər vəzifələrdə dəyişikliklər olacaq.

5.Yeni hökümət, Parlament üzvlərinin və keçmiş hökümət təmsilçilərinin həyat və mülkiyyət təhlükəsizliyini təmin edəcək.

6.Qırmızı Ordunun Bakıya silahlı müdaxiləsinin qarşısının alınması üçün tədbirlər görüləcək.

7.Yeni qurulan hökumət, Azərbaycanın müstəqilliyini pozmağa yönəlmiş xarici müdaxilələrə qarşı sərt addımlar atacaq və əlindəki imkanlarla bu istiqamətlərdə mübarizə aparacaq.

1920-ci il aprelin 28-də Azərbaycan İnqilab Komitəsi "Bakı və bütün Azərbaycan əhalisinə" ünvanlanan bəyanatla çıxış edərək, hakimiyyətin artıq öz əllərində olduğunu və bu səlahiyyətlərin Azərbaycan zəhmətkeşlərinin iradəsi əsasında onlara verildiyini elan etdi. Beləliklə, müstəqil AXC fəaliyyətini dayandırdı. Azərbaycanın işğalı təsadüfi deyil, uzun müddət ərzində düşünülmüş və planlaşdırılmış siyasi strategiyanın nəticəsi idi. Cəmi 23 ay ömür sürmüş, bu müddətin də yalnız 19 ayını Bakıda fəaliyyət göstərmiş Azərbaycan milli höküməti, qısa və gərgin dövrdə mühüm nailiyyətlər əldə etmişdir. Milli ideologiyanın

formalaşması, xalqda dövlətçilik ənənələrinin bərqərar olunması, ictimai-siyasi, iqtisadi və mədəni sahələrdə mühüm islahatların aparılması, eləcə də gələcək inkişaf üçün sağlam təməlin qoyulması kimi sahələrdə əvəzsiz xidmətlər göstərmişdir. Bu nailiyyətlər, sabitlikdən uzaq, çətin və təlatümlü bir zamanda həyata keçirilmiş və xalq qarşısında milli hökumətin şərəfli bir missiyanı uğurla yerinə yetirdiyini sübut etmişdir. Azərbaycanın ələ keçirilməsi Sovet Rusiyası üçün strateji baxımdan son dərəcədə əhəmiyyətli bir addım idi. Bu hadisə, bölgədəki mövqelərini möhkəmləndirmək və Cənubi Qafqazda təsir dairəsini genişləndirmək üçün önəmli bir mərhələ sayılırdı. Hətta 1920-ci ilin 28 aprel tarixində XI Qırmızı ordunun Azərbaycanın ərazisinə daxil olaraq işğalı həyata keçirməsindən sonra Kirov və Orconikidze Leninə teleqram göndərərək, Azərbaycan əməkçi kütlələrinin "uğurunu" qeyd etməsini rica etmişdilər.Xarici ölkələrdəki siyasi mühacirlərin qələmə aldıqları əsərlərdə və nəşr etdikləri jurnallarda, eləcə də bir sıra xarici tarixçilərin araşdırmalarında 28 aprel hadisələrinin mahiyyəti tam olaraq "işğal" kimi qiymətləndirilmişdir. Bu da səbəbsiz deyildi- çünki bir dövlət digər bir müstəqil qonşu ölkəyə silahlı müdaxilə edərək onun suverenliyinə son qoymuşdu. Bolşevik hərbi qüvvələrinin Azərbaycana hücmu nəticəsində hakimiyyət zorla ələ keçirildi, çevriliş baş verdi və kommunistlər iqtidara gətirildi. Bununla da AXC öz mövcudluğunu dayandırdı. Bu işğal və siyasi dəyişiklik ölkənin siyasi quruluşunda, iqtisadi sistemində, ideoloji həyatında və cəmiyyətin müxtəlif sahələrində dərin və radikal dəyişikliklərə səbəb oldu.

**Nəticə**

1920-ci il aprelin 28-də Azərbaycanın sovetləşdirilməsi yalnız hərbi təcavüz aktı kimi qiymətləndirilə bilməz. Bu hadisə əslində Sovet Rusiyasının Cənubi Qafqazda geosiyasi maraqlarını reallaşdırmaq üçün uzun müddət ərzində hazırladığı məqsədyönlü və sistemli siyasətin tərkib hissəsi idi. AXC-nin süqut etməsi ilə regionda demokratik idarəçilik perspektivləri aradan qalxdı, milli dövlət quruculuğu prosesi yarımçıq qaldı və ölkə sovet totalitar rejiminin və markist ideologiyanın təsiri altına düşdü. *"Azərbaycanın işğalı uzun müddət hazırlanan mərkli bir siyasətin reallaşdırılması idi. Cəmi iyirmi üç ay mövcud olmuş və bunun da on doqquz ayını Bakıda yerləşmiş Azərbaycan milli hökuməti milli ideyanın inkişafı, milli dövlətçilik ənənələrinin xalqın yaddaşına həkk edilməsi, millətin, ölkənin və bütövlükdə Azərbaycan cəmiyyətinin inkişafı, ölkə həyatının müxtəlif sahələrində əsaslı islahatların aparılması və davamlı inkişaf platforması yaratmaq üçün müqayisəolunmaz işlər görmüşdür. Bu işlər Azərbaycan milli hökuməti tərəfindən qısa zaman kəsiyindəvə stabil olmayan siyasi şəraitdə həyata keçirilmiş və Azərbaycan xalqı qarşısında çox şərəfli bir vəzifəni*

*yerinə yetirmişdir”* [4,13]. Azərbaycanda sovet hakimiyyətinin bərqərar olması üçün zəmin XX əsrin əvvəllərindən formalaşmağa başlamışdı. İqtisadi çətinliklər, sosial narazılıqlar, müxtəlif ideoloji-siyasi qrupların fəallaşması və Rusiyanın region üzərində nəzarətini gücləndirmək istəyi bu istiqamətdəki prosesi sürətləndirən əsas faktor olmuşdur. Azərbaycanın strateji mövqeyi və enerji ehtiyatları isə Rusiyanın bu ərazidə siyasi hökmranlığını təmin etmək istəyini daha da gücləndirdi. Bu işğal isə Azərbaycan üçün olduqca mənfi nəticələr verdi, Dövlət müstəqilliyi əlindən alındı. Hər nə qədər də Sovet Rusiyasına müəyyən şərtlər verilsədə verilən heç bir şərtə əməl olunmadı. Azərbaycan üçün 70 illik işğal dövrü başladı. Bu dövr ərzində sovet Rusiyası “Qırmızı terror” siyasətini həyata keçirdi. Bu siyasət isə Azərbaycanlılar üçün ən acı faciələrdən biri idi. Bu siyasət nəticəsində ümumilikdə, 1920-ci ilin aprelin 28-dən başlayaraq, 1921-ci ilin avqustuna qədər 48 min insan Azərbaycanda qurban olmuşdur.

## Ədəbiyyat

1. Azərbaycan Milli Elmlər Akademiyası, Tarix İnstitutu. *Azərbaycan tarixi* (Cild 5). Bakı: Elm nəşriyyatı. 2008
2. Bünyadov, Z. *Qırmızı terror*. Bakı: Qanun nəşriyyatı. 2017
3. Əhmədov, X. *Azərbaycanda sovetlərin yaranması və möhkəmləndirilməsi (1920–1925-ci illər)*. Bakı: Azər.SSR EA nəşriyyatı. 1966
4. İbrahimli, F. Amansız "Aprel işğalı" – AXC-nin faciəli süqutu. *Xalq qəzeti*, №85. 2025

# FORMATION OF THE SOVIET REGIME IN AZERBAIJAN: HISTORICAL AND POLITICAL FOUNDATIONS

**E.B. Talishinsky, N.A. Rahmanova**
Azerbaijan University, Ceyhun Hajibeyli 71, Baku, Azerbaijan

**Abstract.** The historical and political foundations of the formation of the Soviet regime in Azerbaijan were associated with complex and multifaceted processes. This process was related to the political crisis and vacuum that emerged after the February and October revolutions in Russia in 1917. Although the Azerbaijan Democratic Republic (ADR), established in 1918, had a short-lived existence, the region's oil resources and political significance accelerated the Bolsheviks' invasion plans. Internal social discontent and contradictions also provided a basis for this. On April 27, 1920, the Red Army entered Baku,

and the Soviet regime was established in Azerbaijan. The article also discusses the political and social situation of Azerbaijan in the early 20th century, the collapse of the ADR and the formation of the Soviet regime in Azerbaijan.

**Keywords:** Azerbaijan, Soviet, Bolshevik, Red Army, ADR.